# Qələbə müjdəsini Şuşadan gözləyirik, Azərbaycan əsgəri!

**Hər bir millətin özünəməxsus keyfiyyətləri onun genində yaşayır və beynəlxalq aləmdə mənsub olduğu xüsusiyyətləri ilə tanınır. Erməni sözü ilə terrorçu, vəhşi, qəddar kəlmələrinin qoşa çəkilməsi tarixi reallıq olmaqla, bu toplumun mahiyyətindən xəbər verir. İki əsrdə türklərə, azərbaycanlılara qarşı dəfələrlə soyqırımı, etnik təmizləmə, deportasiya siyasəti yeridən daşnaklar görbagorlarından miras qalan "böyük Ermənistan" adlı sərsəm xəyallarını gerçəkləşdirmək üçün hər cür qəddarlığa əl ataraq nəinki insanın, xislətləri eyni olan şeytanın ağlına gəlməyən vəhşiliklər törədərək kimliklərini bəlli edirlər.**



Bütün siyasətlərini başqalarına qarşı təzminat, torpaq, təcavüz, təxribat prinsipləri əsasında formalaşdıran "yan"lar imperiyaların, yaltaqlandıqları başqa dövlətlərin hesabına istəklərinə qismən nail olsalar da, azğınlıqları, başqalarına məxsus olanları özününküləşdirmək iştahaları bitib-tükənmir. Bölgədə siyasi sabitliyin pozulmasında mənfi faktor olduğu dünya ictimaiyyətinə bəlli olsa da, havadarlarının əlində vasitə olan, onların maraqlarının gerçəkləşməsində alət kimi istifadə edilən Ermənistanın faşist ideologiyasına bağlılığı hələ də davam edir.

Erməni vəhşiliyindən ən çox əziyyət çəkən Türkiyə və Azərbaycan soyqırımlar, qırğınlar, hərbi cinayətlər nəticəsində milyonlarla vətəndaşını itirsə də, daşnakların qana həris gözləri hələ də doymaq bilmir.

Dağlıq Qarabağ münaqişəsi başlanan gündən, Xocalı da daxil olmaqla günahsız azərbaycanlılara qarşı ən çirkin vasitələrdən istifadə edərək ermənilyin faşizm mahiyyətindən qaynaqlandığını əməlləri ilə sübut edən, uşaq, qadın, ahıl demədən kütləvi qırğınlar törədən erməni vandalları faşizmə xidmət edən, qulağı, kəsik Andranik Ozanyanın, Njdenin, Dronun, beynəlxalq səviyyədə tanınan terrorçu Monte Melkumyanın xələfləri olduqlarını sübut etdilər.

Təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində törətdikləri təxribatlar üçün layiqli cavablar alan ermənilər Milli Ordumuzun rəşadəti qarşısında gücsüzlüyünü hərbi hissələrini qoyub qaçmaqla bəyan etdilər. Ermənistanın başsız baş naziri Nikol Paşinyanın "qüdrətli ordu" mifini darmadağın edən Azərbaycan əsgəri düşmənə əsrlər boyu unutmayacağı dərs verir. Milli Ordumuz qarşısında tab gətirməyən, döyüş sursatlarını, hərbi texnikalarını qoyub qaçan, dünyanın hərb tarixində, heç bir ölkədə müşahidə olunmayan "döyüş taktikası" ilə yadda qalan ermənilərin qolları qandallı "döyüşən əsgərləri" baş nazirlərinin "yallı" gedərkən dəstəbaşı kimi yellədiyi ağ dəsmalı indi ağbayraq kimi qaldırır, ordumuza təslim olurlar.

Bununla belə erməniliyin ən rəzil nümunəsini də göstərirlər. Döyüş meydanında Azərbaycan əsgərinə məğlub olan erməni hayları məğlubiyyətdən quduzlaşaraq dinc əhalini hədəfə alırlar. Döyüşlərin getdiyi ərazilərdən çox-çox uzaqda yerləşən Azərbaycanın kəndlərini, şəhərlərini raket, bomba atəşinə tutaraq yaşayış məskənlərini dağıdır, mülki əhalini qətlə yetirir, yaralayırlar. Uşaq qatili olan sələflərinin qəddarlığını təkrarlayaraq yenə də körpələri qətlə yetirir, ata-analarını vəhşicəsinə öldürərək onları valideyn himayəsindən məhrum edirlər.

Azərbaycanın ikinci ən böyük, qədim və tarixi şəhəri olan Gəncəni dəfələrlə raket atəşinə tutan ermənilər faşistlərə belə rəhmət oxutduraraq, qaniçənlikdə bərabərləri olmadığını dünyaya göstərdilər. Erməni cəlladlarının qurbanları olan uşaqlar- Fariz, Aygün, Zəhra, Fidan, Şəhriyar, Nigar... erməni cəlladlarının qurbanlarıdırlar. Gəncədə, Mingəçevirdə ermənilərin atdıqları raketlər nəticəsində yaranan vəziyyətlə tanış olan Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatik korpuslarının, beynəlxalq təşkilatların, nümayəndəliklərin təmsilçiləri yaranan mənzərəni çox təəssüf ki, susqunluqla seyr etdilər.

İnsanlığa yaraşmayan əməllər sahibi olduqlarını Gəncəyə, Azərbaycanın digər ərazilərinə hücumlarını gecə saatlarında, insanların yatdığı zaman keçirən Ermənistanın bu məkrli əməlləri də insanlıq qanunlarının əks olunduğu beynəlxalq konvensiyalara meydan oxumaqdır. Mülki əhaliyə qarşı alçaq hərəkətləri ilə insanlıqdan kənar olduqlarını qan qoxulu əməlləri ilə göstərən ermənilər atdıqları raketlərin ölüm saçan qorxusu ilə ədaləti susdurub, sülhə meydan oxudular. Qısa müddət üçün nəzərdə tutulan humanitar atəşkəsə belə əməl etməyən ermənilər həyasızcasına yenə də özlərinə haqq qazandıraraq, başqa dövlətlərə yalvararaq yardım istəyirlər. Ən pisi odur ki, fikri, düşüncəsi, insanlara hörməti Paşinyan səviyyəsində olanlar qatil Nikolu dəstəkləyirlər. Həmin "demokratların", dünyaya insanlıq dərsi keçənlərin beynəlxalq qanunları unudaraq qaçaq yollarla Ermənistanı silahla təmin etmələri dırnaqarası dost adlandırdıqları Azərbaycan vətəndaşlarının qətlinə "humanist yanaşmadır." Cəbhə xəttini genişləndirməklə başqalarını da müharibəyə cəlb etmək istəyən Paşinyanın faşist mahiyyətini bilsələr də öz maraqları naminə işğalçını silahlandıran, onlara əsrlərdən, illərdən bəri dayaq duran havadarlarının da saxta "sülh naminə çalışmaq" niyyətləri bəlli oldu.

Amma 30 il həllini gözləyən əsl insanlıq, ədalət qanunlarını Azərbaycan əsgəri yazdı. Nizami yurdu Gəncənin qəlbinə vurulan yaranı Cavadxan cəsarəti, dahi şairimizin adını daşıyan Füzuli dühası, hikməti ilə "sağaltdı." Erməni işğalı altında inildəyən, əsl sahiblərini gözləyən Füzulidə bayrağımızı dalğalandırmaqla dünyaya Azərbaycan adlı bir qüdrətli ölkənin varlığını sübut etdi. İşğaldan azad olunan hər qarış torpağımız Ermənistana Xocalı soyqırımının cavabıdır. Azərbaycan sərhədçilərinin bayraq taxdığı, əsrlərdən bəri o taylı, bu taylı qardaşların qürbətçilik həsrətinə son qoyacaq Xudafərinin sevincidir. Əzizlərini, evlərini itirsələr belə Prezident, Ali Baş Komandan İlham Əliyevlə bir olduqlarını bildirən xoş sözlərdir.

Tam qələbənin sevindirici xəbərini gözləyən Azərbaycan vətəndaşları siyasi iradəsi və qətiyyəti ilə status-kvoya son qoyan, təmas xəttini dağıdan Prezident İlham Əliyevin "Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda dalğalandırılacaq. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!" sözlərini Ali Baş Komandanımızın əmrlərini yerinə yetirən Azərbaycan Ordusu tarixə zəfər müjdələri yazır, erməni mifini yox edir. Şuşaya, Xankəndinə də yolun uğurlu olsun, Azərbaycan əsgəri!

✍ **Xuraman İsmayılqızı,**
***"İki sahil"***